**BDU-nun filologiya fakültəsinin «Klassik Azərbaycan ədəbiyyatı» kafedrasının 2008-ci il üçün elmi-tədqiqat işlərinin**

**PLANI**

| Sıra № | İstiqamət, problem, mövzu və işin adı | İşin məqsədi | İcra müddəti | | İşin rəhbəri | İşin icraçıları |
|---|---|---|---|---|---|---|
| | | | Başlama | Qurtarma | | |
| 1. | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | **İstiqamət**: Klassik Azərbaycan ədəbiyyatı<br>**Problem**: Klassik Azərbaycan poeziyasının ideya-mövzu və sənətkarlıq məsələləri | | | | Prof. Q.M.Namazov | |
| | **Mövzu**: Klassik Azərbaycan poeziyasının sənətkarlıq məsələləri | | 01.2008 | XII 2008 | | |
| 1. | **İş**: A.Şaiqin uşaq əsərləri | A.Şaiq yaradıcılığa uşaq əsərləri ilə başlamışdır. Çünki XX əsrin əvvəllərində məktəblərdə yeni tipli uşaq əsərlərinə böyük ehtiyac vardır. A.Şaiq müəllimliklə yanaşı, şagirdlərin ehtiyacını ödəmək üçün qısa bir müddətdə uşaq əsərlərinin gözəl nümunələrini yaratdı. Bu əsərlər kiçik həcmli şeirlərdən, təmsillərdən, məhruməl추dən və pyeslərdən ibarət idi. «Tülkü həccə gedir», «Yaxşı arxa», «Vətən», «El oğlu», «Beş saat xəlifəlik», «Tələbə həyatı» və b. bu qəbildəndir. Elmi işdə ədibin bu tipli əsərləri sənətkarlıq baxımından təhlil olunur. | 01.2008 | XII 2008 | | Prof. Q.M.Namazov |

| 1 | 2 | 3 | 4 | | 5 | 6 |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | | |
| **2.** | **İş**: Klassik dramaturgiyamızda remarka problemi | Elmi işdə klassik dramaturgiyamızda remarka yaradıcılığı haqqında ümumiləşmiş nəticələr söylənilir. Yəni bir görkəmli dramaturqun remarkaya münasibəti ondan istifadə üsulları və remarka yaratmaq üslubu konkret misallar əsasında şərh olunmuşdur. M.F.Axundov, N.Vəzirov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov kimi ədiblərin dramaturgiyasındakı remarkaların xarakteri haqqında təsəvvür yaradılmışdır. Habelə remarkanın bədii fzenksiyası haqqında nəzəri mülahizələrdə söylənilmişdir. | 01.2008 | XII 2008 | | Prof. T.Mütəllimov |
| **3.** | **İş**:S.M.Qənizadənin «Məktuatı Şeyda bəy» romanında məktəb və müəllim probleminin qoyuluşu | İki hissədən ibarət «Məktuatı Şeyda bəy» romanı sırf əxlaqi- didaktik yazılmış bir əsərdir. Burada müəllif müəllim şəxsiyyəti və tərbiyə məsələərini ön plana çəkir. Onun nəzərində müəllim müqəddəs bir varlıqdır. Ancaq müəllimin əməyi sayəsində bəşəriyyət elmə, maarifə, mənəvi təkamülə yiyələnir, öz ictimai, fərdi borcunu dərk edir, cəmiyyət üçün yararlı bir şəxsiyyətə çevrilir. Elmi işdə məhz bu problemlər araşdırılır və geniş təhlil | 01.2008 | XII 2008 | | Prof. X.Əlimirzəyev |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | olunur. | | | | |

| 1 | 2 | 3 | 4 | | 5 | 6 |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | | |
| **4.** | **İş**: Ədəbiyyat nəzəriyyəsinin tarixi və metodologiyası | Ədəbiyyat nəzəriyyəsinin metodologiyası nisbətən daha müasir elm sahəsidir. Ədəbiyyat nəzəriyyəsi metodologiyası nəzəriyyənin özü haqqında bir elmdir. Bununla bağlı ədəbiyyat nəzəriyyəçiləri arasında müxtəlif poetik fikir və mülahizələr mövcuddur. Bəziləri nəzəriyyəni metodologiya, başqaları isə metodologiyanı nəzəriyyə tabe olan elm sahəsi hesab edirlər. Elmi işdə ədəbiyyat nəzəriyyəsinin metodologiyası ilə bağlı tədqiqat aparılır və polemik fikirlərə aydınlıq gətiriləcəkdir. | 01.2008 | XII 2008 | | Prof. B.Babazadə |
| **5.** | **İş**:B.Abbaszadənin satiraları | Mollanəsrəddinçi şairlər nəslinə mənsub olan B.Abbaszadə əlinə qələm aldığı gündən satirik şeirlərin kəsərindən, fəlsəfi məzmunundan, təsir dairəsindən istifadə edəcək nadan qan içən, zorakı insanlara və dərrakəsizlərə qarşı mübarizə aparmışdır. O, satirik şeirlərində özünün mütərəqqi fikirlərini | 01.2008 | XII 2008 | | Dos. Z.Salmanova |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | bədii boyalarla bənzətmə və mübaliğələrlə, eləcə də məcazın digər növlərilə daha qabarıq çatdırılır. | | | | |
| **1** | **2** | **3** | **4** | | **5** | **6** |
| | | | **1** | **2** | | |
| **6.** | **İş**:Hacıağa Fəgir Ordubadi ana-dilli şeirinin vəzni | Anadilli şeirdə əruz vəzninin tətbiqi xüsusiyyətlərini araşdırmaq, müqayisəli şəkildə ümumiləşdirmək. Elmi işdə bəhrlər üzrə konkret material sistemləşdirilir, statistitk şəkildə konkretləşdirilir. Həh bəhre üzrə intensivlik faizlərlə göstərilir, ümumi Azərbaycan əruzundakı intensivliklə uyğunluq və fərqlər üzə çıxarılır. | 01.2008 | XII 2008 | | Dos. B.Məmmədzadə |
| **7.** | **İş**: Klassik ədəbiyyatda vəhdəti – vücüd mövzusu (XX əsrə qədər) | Kitabda Şərq ədəbiyyatında əsrlərdən bəri mühakimə mövzusu olan vəhdəti – vücüd fəlsəfi konsepsiyası elmi şəkildə şırh edilir. Bu konsepsiyanın müsəlman dünyasında dərin kökləri var. Elmi işdə həmin kökləri araşdırmaq vəhdəti – vücüd fəlsəfi konsepsiyasının mənəvi-psixoloji məqamları şərh edilir. | 01.2008 | XII 2008 | | Dos. S.İbrahimov |
| **8.** | **İş**: XVII-XVIII əsrlər Azərbay-can ədəbiyyatında hekayə janrı-nın poetikası | Elmi işdə Azərbaycan bədii nəsri tədqiq olunur, onun təşəkkül olunan hekayənin Azərbaycan bədii nəsrində kiçik janrı hesab olunan hekayənin Azərbaycan bçdii nəsrində yeri inkişaf tarixi mərhələ olan | 01.2008 | XII 2008 | | Dos. L.Əliyeva |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | XVII-XVIII əsrlər ədəbiyyatında nəsr nümunələrində hekayə janrının dəyərli örnəkləri tədqiq olunur. | | | | |

| 1 | 2 | 3 | 4 | | 5 | 6 |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | | |
| **9.** | **İş**: S.Fəgihinin «Yusif və Züleyxa» poeması | XIV əsr Azərbaycan şairi S.Fəgihi Azərbaycan anadilli poeziyasının inkişafında xüsusi xidməti olan sənətkarlardan biridir. Onun «Yusif və Züleyxa» poeması ideya, mövzu, bədii xüsusiyyətlərinə görə seçilir. Elmi işdə mövzunun Azərbaycan ədəbiyyatında işlənməsi şərq ədəbiyyatı ilə bağlılığı araşdırılmaqla poemanın surətlər aləmi, sənətkarlıq məsələləri araşdırılacaq, şairin ədəbiyyat tarixindəki yeri müəyyənləşdiriləcək. | 01.2008 | XII 2008 | | Dos. M.Vəliyev |
| **10.** | **İş**: H.Cavidin «Şeyx Sənan» faciəsi | Bu elmi işdə mənzum faciənin yaranması və romantik «Şeyx sənan» əsərində qoyulan əsas problemlər və sənətkarlıq xüsusiyyətləri araşdırılacaq. | 01.2008 | XII 2008 | | Baş müəllim T.Həsənov |
| **11.** | **İş**:Ə.Nəzmi yaradıcılığının ideya-mövzu xüsusiyyətləri | Azərbaycan realist ədəbiyyatının görkəmli nümayəndələrindən biri Əli Nəzmi fəal mollanəsrədinçi şair olmuşdur. O, satirik şeir, mənzum hekayə, felyeton, xatirə və məqalələr müəllifi kimi məşhurlaşmışdır. Elmi | 01.2008 | XII 2008 | | Baş müəllim J.Hüseynova |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | işdə Əli Nəzminin ictimai geriliyə, zəmanəyə, ədalətə qarşı yazdığı satiralar təhlil olunmuş, yaydığı maarifpərvər ideyalar ön plana çəkilmişdir. | | | | |
| **1** | **2** | **3** | **4** | | **5** | **6** |
| | | | **1** | **2** | | |
| **12.** | **İş**: Məhcur Şirvaninin «Qisseyi-Şirzad» əsərində Şirzad obrazı | Məhcur Şirvaninin «Qisseyi-Şirzad» əsərində qələmə alması Şirzad obrazı XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında yaradılan nağılları cəngavər obrazlarındandır. O, Məsihinin Vərğası sayaq qorxmadan döyüşlərə atılır. Bu obrazı yaradarkən şair, türk dastanlarından və Şərq ağız ədəbiyyatından təsirlənmişdir. Elmi işdə Şirzad obrazı müasir ədəbiyyatşünaslığın tələbləri baxımından təhlil olunacaq, həmin dövrdə qələmə alınan digər qəhrəman obrazları ilə müqayisə ediləcək. | 01.2008 | XII 2008 | | Baş müəllim S.Qocayeva |
| **13.** | **İş**: M.Ə.Sabir realizminin tədrisinin filoloji aspektləri | M.Ə.Sabir poeziyası Azərbaycan realist şeirinin ən mükəmməl təkamül mərhələsi, tənqidi realizm metodu kontekstində araşdırılır, | 01.2008 | XII 2008 | | Baş müəllim M.Bayramlı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | ədibin yaradıcılığının tədrisi ilə bağlı aktual nəzəri-metodik məsələlər diqqət mərkəzinə çəkilir. | | | | |

| 1 | 2 | 3 | 4 | | 5 | 6 |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | | |
| **14.** | **İş**: N.Vəzirov və milli özünüdərk | 2008-ci tədris ili üçün nəzərdə tutulmuş «N.Vəzirov və milli özünüdərk» adlı tədqiqatda N.Vəzirovun ədəbi irsinə yeni bir təfəkkürlə yanaşılacaq və bir maarifçi mütəfəkkir kimi onun milli özünüdərkimizdə xidməti dəyərləndiriləcək. M.F.Axundov ədəbi məktəbinin davamçısı kimi Vəzirovun ədəbiyyatımızda mövqeyi bir daha qiymətləndiriləcək. | 01.2008 | XII 2008 | | F.e.n. M.Həsənov |
| **15.** | **İş**: «Kitabi Dədə-Qorqud» dastanlarının XX əsr Azərbaycan nəsrinin inkişafına təsirinin öyrənilməsi | «Kitabi Dədə-Qorqud» dastanının yazılı ədəbiyyatda təsiri məsələsi müxtəlif tədqiqatların diqqətini cəlb etmişdir. Ayrı-ayrı əsərlərində o, cümlədən klassik ədəbiyyatda Dədə-Qorqud motivləri kimi məsələlərə müxtəlif səviyyəli əsərlər həsr olun- | 01.2008 | XII 2008 | | F.e.n. Y.İsmayılova |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | muşdur. Qoyulan bu problem təd-qiqatda öz əksini tapacaqdır. | | | | |

**Klassik Azərbaycan ədəbiyyatı kafedrasının müdiri: prof.Q.M.Namazov**